




# Mingəçevir Dövlət Universiteti: müasirləşən təhsil ocağı

## Təhsil naziri MDU-da olub







İyunun 28-də təhsil naziri Emin Əmrullayev Mingəçevir Dövlət Universitetində (MDU) olub.

Nazir əvvəlcə MDU-nun cari il üzrə magistratura məzunlarının dissertasiya işlərindən ibarət “Poster Sessiyası”na baxış keçirib. Mühəndislik, iqtisadiyyat və təhsil istiqamətləri üzrə magistratura məzunları ilə səmimi söhbət edən nazir onların tədqiqat işlərinin nəticələri ilə tanış olub və məmnunluğunu ifadə edib.

Daha sonra təhsil naziri universitetin professor-müəllim və tələbə heyəti ilə görüş keçirib. Emin Əmrullayev ölkəmizdə ali təhsilin inkişafına dövlət başçısı və Birinci vitse-prezident tərəfindən göstərilən yüksək diqqət və qayğıdan bəhs edib, MDU-nun son illərdəki uğurlu inkişafını vurğulayıb, ali təhsilin əlçatanlığının artırılması istiqamətində görülən işlərdən danışıb, bu təhsil səviyyəsinin keyfiyyətinin daha da yüksəldilməsi üçün nəzərdə tutulan tədbirləri diqqətə çatdırıb. Səmimi formatda keçən görüşdə təhsil naziri iştirakçıların çoxsaylı suallarını cavablandırıb.

Emin Əmrullayev MDU Məzun Günü — 2022 tədbirində də iştirak edib. Məzunları təbrik edən nazir onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Akademik göstəricilərinə və universitetin ictimai həyatında iştirakına görə fərqlənən məzunlara Fəxri fərmanlar təqdim edən nazir məzunlarla xatirə şəkilləri çəkdirib.

Sonda MDU-nun yeni kampusunun tikiləcəyi əraziyə baxış keçirilib və layihə haqqında nazirə məlumat verilib.

## Kiber Təhlükəsizlik Laboratoriyasının açılış mərasimi keçirilib

İyunun 28-də Mingəçevir Dövlət Universitetində (MDU) Kiber Təhlükəsizlik Laboratoriyasının açılış mərasimi keçirilib.

Açılış mərasimində təhsil naziri Emin Əmrullayev, Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, MDU-nun rektoru Şahin Bayramov və digər qonaqlar iştirak ediblər.

Qonaqlar Laboratoriyada yaradılmış şəraitlə tanış olublar.

Bildirilib ki, Laboratoriya Təhsil Nazirliyinin qrantı əsasında həyata keçirilən “Mingəçevir Dövlət Universitetində Kiber Təhlükəsizliklə bağlı Fənlərin Tədrisinin Təkmilləşdirilməsi” layihəsi çərçivəsində yaradılıb. Cari ilin yanvar-iyun aylarında icra edilən layihənin əsas məqsədi informasiya texnologiyaları təhsili sahəsində MDU-nun potensialını artırmaqdan, kiber təhlükəsizlik üzrə modern təhsil modeli yaratmaqdan, tələbə, müəllim, məzun və tərəfdaşlar arasında kiber təhlükəsizliklə bağlı maarifləndirmə işini gücləndirməkdən ibarətdir.

Laboratoriya kiber təhlükəsizlik və bütövlükdə informasiya texnologiyaları üzrə yüksəkixtisaslı mütəxəssis-mühəndislər hazırlamağa imkan verəcək və tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edən platforma rolunda çıxış edəcək.

Qeyd edilib ki, Laboratoriyanın yaradılmasında Qazi Universitetinin MDU-da fəaliyyət göstərən professorları Ercan Nurcan Yılmaz və Cemal Yılmaz yaxından iştirak ediblər.

Laboratoriyada mövcud olan 22 kompüter kiber təhlükəsizliklə bağlı müvafiq proqram təminatına malikdir.

İnformasiya texnologiyaları, informasiya təhlükəsizliyi və kompüter mühəndisliyi ixtisasları üzrə seçilmiş fənlərin tədrisinin həyata keçiriləcəyi Laboratoriya müvafiq istiqamətlər üzrə tədqiqatların aparılmasına da imkan verəcək.